# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 300** **Bakı şəhəri, 13 iyul 2018-ci il**

**“Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 590; 2016, № 5, maddə 955; 2018, № 2, maddə 331) 1-ci hissəsinin “Kollegiyanın üzvləri” bölməsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** “Babayev Sahil Rafiq oğlu” sözləri “Məmmədov Rüfət Tofiq oğlu” sözləri ilə əvəz edilsin.

**2.** “Səfərov Niyazi Abdulla oğlu - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini” sözlərindən sonra “Abdullayev Şirzad Əyyub oğlu - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini” sözləri əlavə edilsin.

**3.** “Abdullayev Şirzad Əyyub oğlu - Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru” sözləri çıxarılsın.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***